# Şahin İBRAHİMOV - 110

# NURLU İNSAN, DƏYƏRLİ TARİXÇİ ALİM

## (Şahin müəllimin əziz xatirəsinə)

*Böyük təbiətlər yaranır az-az*
*Hər yerdə hər zaman inci tapılmaz.*
**Səməd Vurğun**

Siyasi xadim və Şərqşünas alim Şahin İbrahimovu xatırlayarkən Xalq şairi Səməd Vurğunun bu misraları yadıma düşür. Ömrünün son gününədək AMEA Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu "İran tarixi və iqtisadiyyatı" şöbəsinin müdiri Şahin müəllim! O, tarixlərdə həm dərin bilikli şərqşünas alim, həm də 21 Azər hərəkatının tarixində onu yaradanlardan (Cənubi Azərbaycanda 1941-ci ildən 1946-cı il dekabrın sonunadək davam etmiş milli azadlıq və demokratik hərəkat) həm də hərəkatın öncüllərindən biri kimi yaşamaqdadır.

İbrahimov Tağı (Şahin) 1916-cı ildə Təbrizdə anadan olmuşdur. İran Xalq Partiyasının, 1945-ci ildə Təbrizdə Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin yaradılmasında yaxından iştirak etmiş, Mərkəzi Komitənin üzvü seçilmişdir. Milli hökumətin qurulmasında fəal iştirak etmiş, Nazirlər Şurasında katib vəzifəsində işləmiş, Seyid Cəfər Pişəvərinin şəxsi katibi olmuşdur. 1946-cı ilin dekabrında Bakıya mühacirət etmişdir. 1958-ci ildən Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda çalışmış, 1973-cü ildən tarix elmləri doktoru dərəcəsi almışdır. 1998-ci ildə vəfat etmişdir.

Bir gün tale mənim də üzümə güldü və mən bu böyük təbiətli insanla, elm fədaisi, neçə-neçə elmi işlərə təmənnasız istiqamət vermiş alimlə rastlaşdım. Bunun tarixi belədir! Adi elmi işçi vəzifəsində çalışdığım AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun zəngin xəzinəsində bir cənublu azərbaycanlı tarixçi alimin çoxsaylı əsərlərini öyrənməyə başladım. Əsərlərinin birində Cənubi Azərbaycanda yaşayıb fəaliyyət göstərmiş, həmvətənlərimiz olan alim, şair, xəttatlar haqqında məlumat əldə etdiyimdən, bu şəxsiyyətlərin yaradıcılığını Azərbaycan tədqiqatçısının diqqətinə çatdırmaq məqsədilə, həmin kitabı fars dilindən tərcümə etdim və nəşr olunması üçün İnstitutumuzun direktoru, Əməkdar Elm Xadimi, filologiya elmləri doktoru, professor, mərhum Cahangir Qəhrəmanova(1927-1995) təqdim etdim. O, bu işin çap olunması üçün mütləq bir tarixçi alimin rəyinə ehtiyac olduğunu bildirdi. Yadıma müəllifi T.A.İbrahimov (Şahin) olan "İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906-cı illər. Bakı: Elm nəşriyyatı" adlı kitabı düşdü. Kitabın 70-ci səhifəsində bu sözləri oxumuşdum: "Nazimülislam Kermaninin yazdığına görə Tehranda böyük ruhanilərdən Şeyx Hadi Nəcmabadi, Seyid Məhəmməd Təbatəbai, görkəmli dövlət qulluqçularından Əminüddövlə, Etimadüsəltənə və başqaları Seyid Cəmaləddinlə həmfikir və sıx əlaqədə idilər". Bu fikirlərdən



mənə aydın olmuş ki, tərcümə etdiyim kitabın müəllifi Marağalı Məhəmmədhəsən xan Səniüddövlə Etimadüssəltənə dünya müsəlmanlarının birliyi uğrunda mübarizə aparmış və bu mübarizədə məhv edilmiş siyasi xadim, böyük filosof Seyid Cəmaləddin Əfqani-Həmədani ilə tanış imiş. Etimadüssəltənənin Qacarlar nəslindən, bu dövlətin ilk nəşriyyat naziri, görkəmli tarixçi-coğrafiyaşünas alim olduğu, ilk dəfə Azərbaycanın e.ə müstəqil şahlığa malik olduğunu bəyan etdiyi, görkəmli tarixçi alim Abdulla Fazilinin də bu faktı məhz onun əsərinə istinad edərək verdiyi barədə məlumatım var idi. Vaxt itirmədən Şərqşünaslıq İnstitutuna tələsdim. "İran tarixi və iqtisadiyyatı " şöbəsinin müdiri Şahin İbrahimova - Etimadüssəltənənin "Maasir və asar" (Hünərlər və əsərlər) əsəri Azərbaycanın XIX əsr elm və mədəniyyət tarixini öyrənməkdə mənbə kimi" adlı əsəri çapa hazırladığım barədə məlumat verdim və vaxt taparaq yazılı rəyini bildirməyi xahiş etdim. Bir müddət keçdikdən sonra Şahin müəllimə yaxınlaşıb, böyük nigarançılıqla "vaxtınızı ayırıb, işə rəy yaza bildiniz?" - deyə soruşduqda O, belə dedi: "Mən bu işə elə indi, bu dəqiqə çapa getmək üçün müsbət rəyimi yaza bilərəm. Amma kitab çap olunduqdan sonra o artıq tək sənin olmayacaq. Məsləhət bilərəm ki, bu hazır elmi işi müdafiə üçün təsdiqə verəsən". Məhz Şahin müəllimin bu məsləhəti mənim həyatımı tamamilə dəyişdi və bugün tarix elmləri doktoru adına layiq görülməyim üçün bu böyük insana, nurani simalı insana minnətdaram, onun ruhu qarşısında baş əyirəm!

Şahin müəllimin məsləhəti və iştirakı ilə o vaxt institutun direktoru olan, filologiya elmləri doktoru, professor, gözəl insan Aida xanım İmanquliyeva ilə görüşdük və O, mövzunun "Etimadüssəltənənin ictimai-siyasi fəaliyyəti" adı ilə əvəz olunmasına razılığını bildirdi. Çünki



*Salamulla Cavid, Sadiq Padiqan, Pişəvəri, Şəbüstəri, Biriya, Tağı Şahin*

o zaman institutda Müdafiə Şurasında mənbəşünaslıq üzrə indeks yox idi və mən Tiflisdə müdafiə etməli idim. Bir əlavə fəsil də işləmək şərtilə dissertasiya işi müdafiəyə hazır oldu və yenə Aida xanımın məsləhəti ilə ümumi tarixdən deyil yalnız XIX əsr tarixinə hazırlaşıb, ixtisas fənnindən imtahan verdim. Çox təəssüf ki yalnız bir dəfə gördüyüm, xatirimdə xeyirxah əməlləri ilə əbədi qalan, gözəl insan Aida xanım İmanquliyeva 1992-ci ilin 19 sentyabrında dünyasını çox vaxtsız dəyişdi və böyük humanizminin uğurlu nəticəsini görmədi. Mən 1994-cü ilin martında böyük vətənpərvər alim, akademik Ziya Bünyadovun sədrliyi ilə aparılan Şurada müdafiə etdim. Əlbəttə, mənim üçün tanınmış, görkəmli tarixçi alimlər; akademik Ziya Bünyadov, Şahin İbrahimov, Şövkət Tağıyeva, Vidadi Mustafayev, Oqtay Məlikov və başqaları qarşısında dissertasiya müdafiə etmək böyük imtahan idi, həyəcanlı vəziyyətimdə yenə Şahin müəllim- "Onu unutma ki, bu işi səndən ətraflı bilən yoxdur" - deməklə mənə mənəvi kömək oldu. Müdafiədən sonra sənədlərimi AAK-na təqdim etdim və iş iki aydan sonra təsdiq edildi. Şahin müəllim məsləhət görürdü ki, dünyanın bir çox elmi cəmiyyətlərinin üzvü olmuş Etimadüssəltənənin əsərlərinin tədqiqini doktorluq işi səviyyəsində davam etdirim. Lakin buna hələ hazır olmadığımı bildirdim. İran mənbələrində rast gəldiyim faktlarla bağlı məqalələr dərc etdirdikcə, artıq dünyalarını dəyişmiş Aida İmanquliyevaya, Ziya Bünyadova və Şahin İbrahimova rəhmət diləyirəm, onların ruhları qarşısında baş əyirəm. Maraqlı bir fakt əsasında yazdığım, Şahin müəllimin çox razı qaldığı və akademik Ziya Bünyadovun bəyəndiyi bir məqaləni diqqətə çatdırmaq istəyirəm. Məlum olduğu kimi Etimadüssəltənə Nəsrəddin şah Qacarın şəxsi mütərcimi olaraq, onu hər üç Avropa səfərində müşayiət etmişdir. O, 1873-cü ildə Avropadan qayıdan şahı Ənzəli limanından Tehrana yola saldıqdan sonra özü Bakının 6-7 km-liyində yerləşən müqəddəs Bibi-Heybət ziyarətgahına getmiş, orada dəfn olunanlar barədə mütəvəllinin dediklərini qeydə alaraq, Nəsrəddin şahın səfərnaməsinə daxil etmişdir. Məlumatda deyilir ki, Bibi-Heybət məqbərəsində dəfn edilənlər İmam Musayi Kazımın (ə) qızı Fatimeyi Suğra, İmam Rzanın (ə) qızı Aişə və onların ərəb mənşəlli Heybət adlı xidmətçisidir. Fatimeyi-Suğranın ayrı düşdüyü bacısı Fatimeyi Kubra isə Qum şəhərində dəfn olunmuş Məsumə xanımdır. Bu məlumatı digər mənbələrlə müqayisə edərək, "Bibi-Heybət məqbərəsində kim uyuyur"? adlı yazını hazırlayıb, Şahin müəllimə göstərdikdə O, dərhal yazını Ziya müəllimə təqdim elədi. Ziya müəllim bu məlumatı, bizim iştirakımızla necə deyərlər, bir nəfəsə oxudu, onun "İslam" qəzetində çap olunmasını məsləhət bildi.

*(Davamı 4-cü səhifədə)*

*(Əvvəli 3-cü səhifədə)*

Şahin müəllim mənə dedi ki, Bibi-Heybətdəki həmin mütəvəlli Ziya müəllimin ulu babası Bünyaddır. Ziya müəllimin bu yazıya böyük marağı mənə aydın oldu. Sonralar digər bir mənbədə bu barədə oxudum.

Mən təəssüf hissi ilə deyirəm ki, xeyli vaxt keçdikdən sonra, 2012-ci ildə "XVIII-XIX əsrlər Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri" mövzusunda müdafiə etdiyim və ədəbiyyat siyahısında onun "Qaşqaylar" və "İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906)" adlı əsərləri olan elmi işimi Şahin müəllim görmədi. Düşünürəm ki, bu mövzudan Şahin müəllim mütləq razı qalacaqdı, çünki əsərdə haqqında bəhs olunan şəxsiyyətlər onun təqdir edəcəyi şəxsiyyətlər, fəaliyyətinə bələd olduğu ictimai-siyasi xadimlərdir: Seyid Cəmaləddin Əfqani, Mirzə Yusif Təbrizi Müstəşarüddövlə, Hüseyn xan Müşirüddövlə, Hüseyn xan Nizamüddövlə Marağayi və başqaları. Mən bütün uğurlarımı Şahin müəllimin adı ilə bağlayıram, çünki məhz bu böyük təbiətli insan mənə elmin işıqlı yolu ilə getməyi məsləhət bil-

# NURLU İNSAN, DƏYƏRLİ TARİXÇİ ALİM

di. Həzrət İmam Rza (ə) buyurmuşdur: "Elm bir nurdur, Allah onu istədiyi şəxsin qəlbində verər".

2019-cu ilin 14 dekabr tarixində 21 Azər gününün 74-cü ildönümü qeyd olunarkən, Azərbaycanın görkəmli tarixçi alimi, professor Solmaz Tohidi-Rüstəmovanın dəvətilə iştirak etdiyim bu tədbirdə, həmin tarixi yazanlardan biri olmuş Şahin İbrahimov haqqında danışmaq imkanı qazandığım o anda özümü xoşbəxt hiss edirdim. Çünki Şahin müəllimin ruhu həmin mərasimdə olmalı idi.

Sözümü akademik Rafael Hüseynovun müdrik insan Şahin müəllim haqqında "21 Azər - 80" tarixi ərəfəsində dediyi bu sözlərilə bitirmək istəyirəm: "Bu nurlu insan və dəyərli tarixçi alimlə 1970-1980-ci illərdə neçə müddət Şərqşünaslıq İnstitutunda birgə işlədik, onun Təbrizin istiqlal havalı günləri ilə bağlı çox xatirələrini dinlədim". (525-ci qəzet, 13 dekabr, 2025, s.17)

***2025.***



*Tahirə HƏSƏNZADƏ,*
*tarix elmləri doktoru.*